MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 33**
**https://orcid/009-0009-7221-3420**
**https://doi.org/10.52094/2221-7584.2025.47.033**

**Tanrıverdi Paşa**
**AR ETN İqtisadiyyat İnstitutunun**
**aparıcı elmi işçisi**
**tpasha_50@mail.ru**

# MƏDƏNİ İRSİN QORUNMASI VƏ BƏRPASININ İQTİSADİ TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Xülasə:** Məqalədə mədəni irsin qorunub saxlanması və bərpasının cəmiyyətin sosial-iqtisadi inkişafında əhəmiyyətinə dair nəzəri araşdırmalar şərh olunur, mədəni irsin dayanıqlı inkişafın əsas amili və gələcək prioteti kimi rolu, ölkənin sosial-iqtisadi inkişafına potensial təsir sahələri açıqlanır, mədəni irsin qorunub saxlanılması, bərpası və ondan istifadəyə dövlət dəstəyinin və müdaxiləsinin zəruriliyi əsaslandırılır. Həmçinin müasir şəraitdə mədəni irsin iqtisadi komponentlərinin qiymətləndirilməsinə dair metodoloji izahlar verilir, mədəni irs obyektlərinin qorunub saxlanılması, bərpası və ondan istifadə problemləri aşkara çıxarılır, dünya təcrübəsi nəzərə alınmaqla mədəni irsin Azərbaycan Respublikasında kreativ iqtisadiyyatın təşəkkülünə verə biləcəyi fayda və töhfələr açıqlanır.

**Açar sözlər:** mədəni irs, mədəni irsin qorunması və bərpası, mədəniyyət, tarixi və mədəniyyət abidələri, iqtisadi qiymətləndirmə, birbaşa və dolayı təsir, kreativ.

## Giriş

Son illərdə mədəni irs – mühüm roluna, sosial həyatın bütün səviyyələrini əhatə etməsinə, eləcə də iqtisadi faydalarına görə ölkə iqtisadiyyatında və cəmiyyətində getdikcə daha vacib amil, müxtəlif ənənəvi və yeni sahələrdə iqtisadi artım və məşğulluq üçün innovativ stimul kimi qəbul edilir. Ayrı-ayrı ölkələrdə və beynəlxalq ictimaiyyətdə mədəni inkişaf səviyyəsinə xalqların sosial-iqtisadi inkişafını xarakterizə edən ən vacib göstəricilərdən biri kimi diqqət diqqət yetirilir.

Mədəni irsin qorunub saxlanması ənənəvi olaraq, iqtisadi nöqteyi-nəzərdən dövlət büdcəsinin yüklənməsi kimi şərh olunurdu. Ancaq indi inkişaf etmiş ölkələrdə bu sahə "müxtəlif ənənəvi və yeni sənayelərdə iqtisadi artım və məşğulluq üçün innovativ stimul" kimi qəbul edilir. Mədəni irsə milli identikliyi, sosial birliyi gücləndirən, vətəndaş şüurunu aktivləşdirən, müəyyən əraziyə, yerə aid olma hissini formalaşdıran amil kimi də mühüm rol verilir. Bu baxımdan, mədəni irs yerli özünüidarəetmə və ərazi inkişafının hərəkətverici qüvvəsi kimi çıxış edir.

## 1. Mədəni irsin qorunub saxlanılması və bərpasına dövlət dəstəyinin və müdaxiləsinin zəruriliyi

Standart iqtisadi nəzəriyyədə yanlış bir dilemma vardır. Əgər mədəni irs cəmiyyət üçün əhəmiyyətlidirsə, o zaman bu, istehlakçılardan gələn tələbdə əksini tapmalı, nəticədə, abidələrdən istifadəyə görə ödəniş onların istismarı ilə bağlı xərcləri ödəməlidir. Həmçinin, məsrəflər abidələrdən istifadədən əldə edilən gəlir hesabına ödənilmirsə, o zaman ya cəmiyyət mədəni irs obyektlərinə kifayət qədər maraq göstərmir, ya da onların istismarı ilə bağlı xərclər bu maraqı üstələyi. Belə sadələşdirilmiş şərh mədəni irsin qorunub saxlanması sahəsinə yönəldilən maliyyələşməni səmərəsiz hesab etmək üçün əsas rolunu oynayır və bu, iqtisadiyyatın gəlir gətirən sektorlarından məhdud vəsaitlərin xaricə çıxmasına səbəb olur. Bu yanlışlığı aradan qaldırmaq mədəni fəaliyyətin iqtisadi nəzəriyyəsinin ən mühüm vəzifələrindən biridir.

Eyni dərəcədə çətin problem, "mədəni irsin qorunması"nın adekvat iqtisadi məzmununun müəyyən edilməsidir. Bu, sadəcə olaraq, mədəniyyət abidələrinin müəyyən edilməsi, konservasiyası və bərpası, təmir-bərpa işlərinin vaxtında və tam yerinə yetirilməsidir, yoxsa daha çox mədəni irs obyektlərinin müasir istifadə və bu abidələrin mövcud zədələnmə riskinin aradan qaldırılması imkanları nəzərə alınmaqla onların özlərinin uyğunlaşdırılmasıdır? "Qızıl orta"nı necə tapmaq olar: abidəni qorumaq və ona yeni nəfəs vermək vacibdir? Azərbaycanın mədəni irsinin ən böyük payı dövlət mülkiyyətində olduğu vəziyyətdə bu problem necə həll olunmalıdır.

Ona görə də "uyğunlaşma yolu ilə inkişaf" prinsipi, əslində, abidəyə yeni funksionallıq verən gələcəyə müraciət deməkdir.

Təəssüf ki, müasir elm, mədəni irsin sosial dəyərinin, istər insan kapitalının inkişafına, istərsə də iqtisadi artıma və əhalinin rifahının artmasına kömək edən mühüm potensialının iqtisadi ölçülməsi ilə bağlı üçüncü problemi hələ də səriştəli şəkildə həll edə bilmir. Bu cür ölçülərə dair mövcud cəhdlər hələ də sırf təbliğat və ya siyasi xarakter daşıyır, halbuki onlar çox vaxt mədəni irsin həqiqi dəyərinin daha yaxşı başa düşülməsinə kömək edə və ona ictimai dəstəyin həcmini bir qədər də artıra bilər.

Mədəni irsin istehlakı daha çox kollektiv xarakter daşımaqla ikili xarakterə malikdir, yəni istehlakı istisna edilməyən və rəqabətliyi olmayan ictimai sərvətlər kateqoriyasına aid edilir. İstisna edilməmək - heç kimin bu sərvətin istehlakından kənarlaşdırıla bilməyəcəyini nəzərdə tutur, istehlakda rəqabətin olmaması isə - bu sərvətin eyni vaxtda çox sayda istehlakçı üçün əlçatan olması deməkdir. [19, s.15] Başqa sözlə, istənilən şəxs digər insanların oxşar ehtiyaclarını ödəmək imkanlarına xələl gətirmədən, mədəni irsdən və mədəniyyət abidələrinin gözəlliyindən həzz ala bilər.

Ayrı-ayrı ölkələrdə və beynəlxalq ictimaiyyətdə mədəni inkişaf səviyyəsinə xalqların sosial-iqtisadi inkişafını xarakterizə edən ən vacib sahələrdən biri kimi diqqət diqqət yetirilir. Mədəni irs innovasiyalar, sərvət yığımı və sosial dəyişikliklər üçün də hərəkətverici qüvvədir. Mədəniyyət sahələrinin roluna maraq göstərmək bir çox ölkələrdə inkişaf strategiyasının bir hissəsinə çevrilmişdir. [13, s. 6-9; 62, s. 47-51] Zəngin mədəni irsə malik olmaqla yanaşı həmin irsin idarə edilməsində təzahür edən mədəniyyət siyasətinə və mədəni turizmə "insanların müəyyən zövqlərini və mədəni ehtiyaclarını təmin etmək qabiliyyətini dərk etməyə və dəstəkləməyə yönəlmiş fəaliyyət sahəsi" kimi də baxmaq olar [10, s. 19].

Beynəlxalq təşkilatların ekspertlərinin fikrincə, mədəni irsə - tarixi, estetik, etnoloji və ya antropoloji baxımdan müstəsna ümumbəşəri dəyərə malik olan bütün memarlıq əsərləri, heykəltəraşlıq və rəsm əsərləri, kitabələr, tikili kompleksləri, insanın yaratdığı əsərlər və arxeoloji abidələr daxildir [11, s. 1-15; 25; 44].

Hazırda mədəni irsin iqtisadiyyatında dövlət qurumlarının kifayət qədər diqqət yetirmədiyi əsas problem: mədəni irsə dövlət dəstəyinin, onun qorunub saxlanılması, o cümlədən təmir-bərpa işlərinin aparılması üçün tələb olunan büdcə vəsaitlərinin ayrılması zərurətinin əsaslandırılması; mədəni irs obyektlərinin bazar dövriyyəsinə çıxarılması, yəni abidələrin müasir iqtisadi şəraitdə kommersiya məqsədləri üçün uyğunlaşdırılmasıdır.

Mədəni irsin qorunub saxlanmasına dövlət müdaxiləsinin məqsədəuyğunluğu ilə bağlı növbəti hal - bazar sövdələşməsində iştirak etməyən üçüncü şəxslərə təsir edən xarici təsirlərlə bağlıdır. Məsələn, daşınmaz əmlak sahibləri şəhərin tarixi tikililərinin qorunması proqramı ilə birbaşa maraqlıdırlar. Onlar təmir-bərpa işləri aparır, bunun müqabilində dövlətdən öz xərclərinin bir hissəsini müxtəlif vergi güzəştləri şəklində kompensasiya etmək imkanı əldə edirlər. Lakin bütövlükdə cəmiyyət bu prosesdə birbaşa iştirak etməsə də, şəhərlərin görkəminin yaxşılaşdırılmasından faydalanır.

Nəhayət, mədəni irsin mühafizəsi sahəsinə dövlət müdaxiləsinin üçüncü halı informasiya asimmetriyası ilə bağlıdır. Belə şəraitdə, ayrıca şəxs konkret mədəni irs obyektinin real mədəni dəyəri və əhəmiyyəti haqqında əhəmiyyətli dərəcədə az məlumatlı olduqda. onun irsin qorunması ehtiyacları və istehlakçı tələbatı da (tarixi yerləri görmək, ziyarət etmək arzusu, mədəni turizm və s.) daha aşağı səviyyədə özünü biruzə verir. Aydındır ki, informasiya asimmetriyası potensialını daşıyan mədəni irs dövlət tərəfindən adekvat fəaliyyət tələb edir.

## 2. Mədəni irsin qorunması və bərpasının birbaşa və dolayı iqtisadi təsirlərinin qiymətləndirilməsi

Mədəni irsin qorunması və uyğunlaşdırılması sahəsində tətbiqi tədqiqatlarda iqtisadi komponentin lazımi səviyyədə qiymətləndirilməməsinə diqqət yetirilir. Bu zaman, mədəni irsin iqtisadi qiymətləndirilməsi iki komponenti: mədəni və tarixi daşınmaz əmlakın şəxsi sərvət hesab edildiyi istifadə dəyərini; üstəgəl, obyektin istifadəsi ilə əlaqəli olmayan ictimai sərvət kimi qiymətini əhatə edir. Bu kontekstdə, obyektin kirayə haqqına onun kommersiya məqsədləri üçün istifadə dəyəri ilə müqayisədə baxılır. Mədəni irsin qeyri-bazar dəyəri onun sosial əhəmiyyətini əks etdirir, ona görə də “layihənin iqtisadi qiymətləndirilməsi

ən azı müəyyən dərəcədə mədəni dəyərləri nəzərə almalıdır" [14, s. 114].

Sənətşünaslar (yaxud daha geniş mənada incəsənət adamları) və mədəniyyət iqtisadiyyatı mütəxəssisləri mədəni fəaliyyətin nəticələrini nə dərəcədə fərqli qiymətləndirmələri də maraqlıdır. İncəsənət adamları mədəni fəaliyyətin iqtisadi qiymətləndirilməsinə əsaslanan tədqiqatlara üstünlük verirlər. Mədəniyyətlə məşğul olan iqtisadçılar isə müsbət xarici təsirlərin mahiyyətini anlamaq və bazar mexanizmi tərəfindən nəzərə alınmayan, mədəni fəaliyyət nəticələrini qiymətləndirməyə imkan verən tədqiqatlara daha çox diqqət yetirirlər [6, s. 2].

Mədəni irsin iqtisadi qiymətləndirilməsinə dair empirik tədqiqatlarda üç əsas yanaşma mövcuddur:

– mədəni irsin qorunması sferasının makroiqtisadi təhlili;

– şərti qiymətləndirmə metodu (ŞQM);

– təsir və ya təzahür tədqiqatları.

Mədəni irsin qorunub saxlanmasının makroiqtisadi təhlili, bu sahənin xərclərinin və gəlirlərinin milli iqtisadiyyat kontekstində qiymətləndirilməsi ilə bağlıdır. Söhbət, mədəni irs obyektlərində təmir-bərpa işlərinə ayrılan vəsaitin həcminin ümumi qiymətləndirilməsindən, bu sahədə məşğul olanların sayından, büdcəyə vergi ayırmalarının ümumi məbləğindən, giriş haqqından maliyyə daxilolmalarının məbləğindən (əgər varsa) gedir. Bu təhlil, həmin sahədə ümumi maliyyə axınlarını və onun ölkənin ümumi milli məhsuluna töhfəsini qiymətləndirməyə imkan verir.

*Şərti qiymətləndirmə üsulları* istehlakçıların sözügedən ictimai sərvətin, bu halda, mədəni irsin qorunması üçün ödəməyə maksimum hazırlığını göstərir. Respondentə, məqsədi - ödəməyə hazır olduğu məbləği cavablandırmaq olan suallar verilir (sorğu telefon, poçt və ya müsahibə yolu ilə aparılır). Suallardan asılı olaraq, alınan məlumatlar müxtəlif üsullarla işlənir. D.Trosbiyə görə, "şərti qiymətləndirmə metodu və əlaqəli üsullar, tələbin normal bazar kanalları vasitəsilə ifadə oluna bilsəydi, tələb funksiyasının nə olacağını hesablayaraq, iqtisadi dəyəri müsbət xarici təsirlərə və ya ictimai sərvətlərə aid etmək mümkün olardı" [14, s. 46]. Bu yanaşmanın əhəmiyyətli çatışmazlığı – "insanların real deyil, hipotetik

iqtisadi seçim vəziyyətində nümayiş etdirdiyi və bəyan etdikləri üstünlüklərin qiymətləndirilməsidir" [10, s. 24].

Nümunə olaraq, 2014-cü ildə Sankt-Peterburqdakı Avropa Universitetinin Ermitajın 250 illiyinə həsr olunmuş " Ermitaj şəhər və vətəndaşlar üçün: muzeyin iqtisadi və sosial vəziyyətinin qiymətləndirilməsinin nəticələri" adlı tədqiqatı göstərmək olar. Burada, Sankt-Peterburq şəhərinin həyatına qatqı (töhfə), əsasən, ödəməyə hazırlığın müəyyənləşdirilməsinə əsaslanırdı. Bu metodologiyaya görə, ümumi iqtisadi effekt üç komponentdən: birbaşa təsir, dolayı təsir və multiplikator təsirdən ibarətdir.

Birbaşa təsir, Ermitajın il üçün ümumi maliyyə gəliri (federal büdcədən vəsaitlər; əsas qanunvericilik fəaliyyət növlərindən gəlirlər; xeyriyyə ianələri və sponsorluq fondları) əsasında hesablanırdı. 2013-cü il üçün birbaşa iqtisadi təsir 5,2 milyard rubl təşkil edirdi [16, s. 30].

Dolayı təsir, şəhərdən kənarda olan və Ermitajı ziyarət edən xarici ziyarətçilərin şəhərdəki xərclərinin (yaşayış, yemək, nəqliyyat, alış-veriş) smetasına əsasən hesablanırdı. Hesablama metodologiyası - ildə ziyarətçilərin sayını şəhərdə qalan günlərin sayına və bir gündə sərf olunan orta məbləğə vurmaqla aparılırdı. Turistlərin xərclərini hesablamaq üçün respondentlərdən, gündəlik xərclərin təxmini məbləğini qeyd etmək istənilirdi. Nəticədə, 2013-cü ildə Ermitajın dolayı iqtisadi təsiri 19,3 milyard rubl təşkil etmişdi [16, s. 39].

Dolayı effekt və ya multiplikator təsiri muzeyin illik xərclərinin məbləğinə (birbaşa təsir), muzeyə gələnlərin illik xərclərinin məbləğinə (dolayı təsir) və multiplikator əmsalına vurulmaqla hesablanırdı. 2013-cü ildə Ermitajın dolayı iqtisadi təsiri 1,50 multiplikatorla 35 milyard rubldan çox olmuşdu [15, s. 42]. Nəticədə, 2013-cü ildə Ermitajın ümumi iqtisadi effekti təxminən 60 milyard rubl təşkil etmişdi [16, s. 42]. Eyni zamanda, bir sıra təsdiqlənməmiş fərziyyələri və bu metodologiyanın əsas müddəalarının əsassızlığını qeyd etməmək mümkün deyil, bu da əldə edilən nəticələrin və muzey fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi metodunun özünün dəyərini bir qədər aşağı salır.

Təsir və ya təzahür tədqiqatları mədəni irsin iqtisadi göstəricilərini həm birbaşa, həm də dolayı yolla (əlaqəli sənayelərdə) mədəni irs obyektlərinin təmiri

və bərpası nəticəsində əldə edilən gəlirlər baxımından ölçür. Bu tədqiqatlar, siyasətçilər və dövlət dəstəyi tərəfdarları arasında çox populyardır, çünki mədəni irsin qorunması sahəsində dövlət xərclərinin iqtisadi cəhətdən əsaslandırıldığını göstərir.

Bunun bariz nümunəsi kimi ötən əsrin 1970-ci illərindən ABŞ-da həyata keçirilən və əsas məqsədi şəhərlərin tarixi görkəminin bərpası və dirçəldilməsi olan - Tarixi Qoruma Milli Trestinin "Baş Küçə" ("Main Street") proqramını göstərmək olar. Proqramın nəticələri göstərir ki, "cəmi üç il ərzində Main Street layihəsinə yatırılan hər dollar şəhərin tarixi mərkəzi bölgəsində orta hesabla 11 ABŞ dolları həcmində yeni investisiya yaradıb" [12, s. 140].

Mədəni irs özəl sektor, müstəqil biznes strukturları və kreativ məhəllələrin inkişafı baxımından regionların, şəhərlərin və kənd yerlərinin cəlbediciliyinin mühüm tərkib hissəsidir. Belə ki, Hamburqda aparılan araşdırmaya görə, kommersiya istifadəsinə uyğunlaşdırılmış mədəni və tarixi irs obyektləri biznesin yerləşdirilməsi baxımından çox məşhurdur: işəgötürənlərin 87%-i ofislərinii tarixi binaya köçürdükdən sonra iş mühitinin yaxşılaşdığını qeyd edib; müştərilərinin 73%-i belə ofisin yerləşməsinə müsbət münasibət bildirib [4, s. 21, 161].

Konkret təcrübə də yeni iş yerlərinin açılmasından xəbər verir ki, onların da əksəriyyəti yerli əhali arasındandır. Bu zaman, xərclərin 70%-ə qədəri əməkhaqqına gedir, beləliklə, yatırılan vəsait regionda qalır, ərazinin investisiya cəlbediciliyinin yaxşılaşdırılmasında iştirak edir, həmçinin yerli biznes mühitinin, əsasən də kiçik biznesin inkişafına töhfə verir [4, s. 162]. Bundan əlavə, mədəni irs obyektlərinin təmiri və bərpasına bir qayda olaraq, yeni tikintiyə cəlb olunan işçi qüvvəsindən fərqli olaraq, daha yüksək ixtisaslı işçilər cəlb olunur ki, bu da, peşəkarlıq səviyyənin yüksəldilməsinə, peşəyə yaradıcı yanaşmaya və bununla da ümumilikdə insan potensialının təkmilləşdirilməsinə əlavə stimul verir.

Mütəxəssislərin qiymətləndirmələrinə görə, mədəni irs, onun qorunub saxlanması ilə bilavasitə bağlı olan 1 iş yerinə 26,7 dolayı iş yeri yaradır ki, bu da, məsələn, avtomobil sənayesində analoji göstərici (6,3 dolayı iş yeri) ilə müqayisədə xeyli çoxdur. Avropada mədəni irsin mühafizəsi sektorunda birbaşa

işləyənlərin sayı 300 min nəfərə yaxındır, lakin əlaqədar sahələrdə iş yerlərinin yaradılmasına dolayı təsir 7,8 milyon nəfər olaraq qiymətləndirilir. Dünya Bankının məlumatına görə, 2001-ci ilə kimi tarixi binaların bərpasına qoyulan hər milyon dollar 31,3 iş yeri, sənaye istehsalına eyni miqdarda investisiya isə əmək bazarında cəmi 21,3 iş yeri yaradır [17, s. 22].

Makkenzi audit və konsaltinq şirkətinin (McKinsey and Company (2001)) hesabatına görə, Londonun cənub sahilindəki keçmiş sənaye zonasının yenidən qurulmasından sonra bu, Böyük Britaniyada ən çox ziyarət edilən üçüncü turizm məkanı olub. Eyni zamanda, 2100-3900 iş yeri açılıb, ölkə iqtisadiyyatına töhfə təxminən 75-140 milyon funt sterlinq təşkil edib ki, bunun da 50-70 milyon funt-sterlinqi birbaşa London iqtisadiyyatı ilə bağlıdır. Onu da qeyd etmək lazımdır ki, 1997-ci ildən 2000-ci ilə qədər mehmanxana və iaşə obyektlərinin sayı 23% artmışdı. Bu, 1800-ə yaxın turizm xidməti iş yerinin yaradılması ilə nəticələnmişdi [4, s. 159-160].

Bundan əlavə, təmir-bərpa işləri yüksək əmək tutumluluğu (xərclərin 60-80% -i, yeni tikinti üçün isə yalnız 50%) ilə xarakterizə olunur. Mədəni irsin ayrı-ayrı komponentlərinin həyat dövrü 25-40 ildir, ona görə də, hər il tarixi binaların cəmi 2-3%-i bərpa işlərinə ehtiyac duyur. Mədəni irs obyektinin uyğunlaşdırılması, ona yeni funksionallıq verilməsi mədəni-tarixi daşınmaz əmlak obyektinin təsərrüfat dövriyyəsinə buraxılmasına imkan verir [9, s. 113-118].

Bu sahədə aparılan tədqiqatlar irs və mədəni turizm arasında birbaşa əlaqə olduğunu göstərir, belə ki, bu, ümumi dünya turizminin 37%-ni təşkil edir və onun illik artım tempi 15%-dir. Tarix və mədəniyyət abidəsinin öz ərazisinə çəkilən xərclər yalnız turistin bu ərazidə xərclədiyi ümumi məbləğin 6-10%-i təşkil edir [9, s. 6-7].

Amerika qeyri-kommersiya təşkilatının (Americans for the arts) məlumatına görə, bir mədəniyyət obyektinə ziyarət edənlər, ziyarətin özünə əlavə olaraq, yemək, suvenirlər, nəqliyyat, mənzil və s. xərclərinə hər adam və bir ziyarət başına orta hesabla 27,79 dollar xərcləyirlər. Üstəlik, yerli sakin üçün bu əlavə xərclər, gəlmə bir ziyarətçidən təxminən iki dəfə azdır ki, bu da, müvafiq olaraq 40,19 dollara qarşı 19,53 dollardır. Tədqiqatın nəticələri təsdiq

edir ki, mədəni yerlərə səyahət edən turistlər daha çox pul xərcləyirlər, qonaqpərvərlik sənayesindən istifadə edirlər və yerli əhaliyə və ya yaxın ərazilərin sakinlərinə nisbətən daha uzun müddət qalmağa meyllidirlər, buna görə də, mədəni və tarixi irsin qorunması region ərazisinin sosial-iqtisadi inkişafının katalizatoruna çevrilir [3, s. 15-16].

Mədəni irsin qorunmasının digər nəticəsi, əlaqəli sahələrin – qonaqpərvərlik sənayesinin, nəqliyyat və kommunal infrastrukturun inkişafıdır. ABŞ-da Main Street layihəsinin həyata keçirilməsinin 35 ildən çox tarixi ərzində on minlərlə kilometr yol yenidən qurulmuş və ya tikilmiş, elektrik şəbəkələrinin, su təchizatının, qaz təsərrüfatının, kanalizasiya sistemlərinin texniki vəziyyəti və s. təkmilləşdirilmişdir ki, bu da öz növbəsində, həyat keyfiyyətinin yaxşılaşmasına və ərazinin investisiya cəlbediciliyinin artırılmasına xidmət etmişdir. "Mədəni irs obyekti özlüyündə, yalnız minimal dərəcədə iqtisadi dəyər daşıyır" [9, s. 113].

Belə ki, 2008-2009-cu illərin qlobal maliyyə böhranı zamanı Fransa Mədəniyyət Nazirliyi nəinki irsin qorunub saxlanılması, həm də bu sahədə yeni iş yerlərinin yaradılması, habelə iqtisadi tənəzzül dövründə mədəni və iqtisadi inkişafı stimullaşdırmaq üçün tarixi-mədəni obyektlərdən istifadə etmək məqsədilə müxtəlif mədəni irs obyektlərinin təmiri və bərpasına 100 milyon avro sərmayə qoymuşdu [8, s.38].

Mədəni irs onun qorunmasına qoyulmuş kapitaldan yaxşı gəlir nümayiş etdirir və həm mədəni irsin qorunması ilə bilavasitə bağlı iqtisadi fəaliyyətlərdən, həm də mədəni irsin istifadəsinə yönəlmiş layihələrin həyata keçirilməsindən dolayı xarici təsirlər hesabına, dövlət vergi daxilolmalarını əhəmiyyətli dərəcədə artıran generatorudur, bu isə öz növbəsində, yeni investisiyaların cəlb edilməsinə kömək edir.

1997-ci ildə Hollandiyada mədəni irsin mühafizəsi sahəsində Hollandiya siyasətinin iqtisadi səmərəliliyini qiymətləndirmək üçün tədqiqat aparılmışdır. Tarixi binaların sahibləri təmir-bərpa işləri üçün dövlət qrantları üçün müraciət edə bilərdilər. Nəticədə, dövlətin yatırdığı hər dollar 2,78 dollar investisiyaya yüksəlib, yəni mədəni irsin qorunması sahəsinə özəl investisiyalardan, sponsorluqdan və xeyriyyəçilikdən 1,78 dollar cəlb edilib. Hökumətin yatırdığı

hər dollar 0,74 ABŞ dolları həcmində iqtisadi gəlirlə nəticələnib. Beləliklə, 1 dollar investisiya əslində dövlətə cəmi 0,26 dollara başa gəlib [5, s. 33].

Bundan əlavə, mədəni irsin nəticələrinin qiymətləndirilməsi onların dar miqyasda ölçülməsindən, əsasən turistlərin sayı baxımından qiymətləndirilməsindən və ya ziyarətçilərin növü, onların istehlakının xarakteri və qalma xərcləri baxımından, yerli səviyyədə daha diqqətlə təhlil edilməsindən asılı olaraq, fərqli şəkildə dəyərləndirilə bilər. Mədəni irs üzrə təşəbbüslərin yerli mədəni irsin unikallığına, yerli həyat tərzinə, regional və yerli ənənələrə "mədəni inteqrasiya" dərəcəsi də vacibdir, buna görə də, müxtəlif maraqlı tərəflərin, xüsusən də, yerli icmanın bacarıqlarına, resurslarına və ehtiyaclarına uyğun olmalıdır.

İqtisadi, sosial, mədəni və ekoloji inkişafın bütün aspektləri, eləcə də turizmin potensial qazancı və xərcləri (o cümlədən alternativ xərcləri) nəzərə alınmalıdır. Müxtəlif maraqlı tərəflərə aid olan nəticələrin və uğurlu inkişaf üçün tədbirlərin tapılması həm turizmə iqtisadi təsirə (birbaşa təsir, turizm multiplikatoru), həm də onun sosial dəyərinə və davamlılığına töhfə verə bilər.

## 3. Müasir şəraitdə mədəni irs obyektlərinin qorunub saxlanılması, bərpası və ondan istifadə problemləri

Müstəqilliyini bərpa etdikdən sonra ölkəmiz bir sıra əhəmiyyətli beynəlxalq və regional təşkilatlarla əməkdaşlıq siyasətini həyata keçirir. Dünya səviyyəli mütəxəssislərin, texniki yardımların, kadrların hazırlanması, qlobal elmi layihələrdə iştirak etmək məqsədilə 1992-ci ildə Azərbaycan dövləti YUNESKO ilə əməkdaşlığa başlayıb. Azərbaycan artıq beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoqun mərkəzinə və təşkilatçısına çevrilib. Bu baxımdan son illər dövlətimizin nüfuzlu beynəlxalq konfranslara ev sahibliyi etməsi təsadüfi deyildir.

Ölkə Prezidenti Ilham Əliyevin böyük diqqət və qayğısı sayəsində Azərbaycanda tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür. Bütün bunlar isə Azərbaycanın qlobal dünyaya öz maddi və mənəvi mədəniyyəti ilə birgə inteqrasiyasını təmin edir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında mədəni irsin qorunması və səmərəli idarə edilməsi ölkənin strateji inkişaf istiqamətlərindən biri kimi qeyd olunur [1]. Bu Konsepsiyanı həyata keçirmək və milli mədəni irsin qorunmasını təmin etmək məqsədilə Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" [2]. təsdiq edilib. Bu müddət ərzində Dövlət Proqramının icrası məqsədilə milli pasportların və xəritələrin hazırlanması, normativ bazanın gücləndirilməsi, abidələrin təbliği istiqamətində bir sıra işlər həyata keçirilib.

Son zamanlar Azərbaycan Respublikasında mədəni irs obyektlərinin (bundan sonra – MİO) qorunub saxlanılmasına və bərpasına, habelə onların potensialından şəhərlərin, qəsəbələrin və ərazilərin iqtisadi və sosial inkişafı üçün istifadə edilməsinə böyük diqqət yetirilir. Bu fəaliyyət, əhəmiyyətli maliyyə investisiyalarını da əhatə edir. Bərpa işlərinin və mədəni irs obyektlərinin saxlanması üzrə tədbirlərin görülməsi yalnız müxtəlif səviyyəli büdcələr hesabına ödənilə bilməz. Hazırda ən aktual olan, ciddi büdcə məhdudiyyətləri şəraitində MİO-nun qorunması və inkişafı üçün müxtəlif mənbələrdən maliyyə resurslarının birləşdirilməsi mexanizmlərinin axtarışıdır.

Azərbaycan memarlığının YUNESCO tərəfindən Ümumdünya mədəni irs siyahısına: Bakıda Şirvanşahlar Sarayı və Qız Qalası ilə birlikdə Köhnə Qala (2000); Qobustan qayaüstü rəsmlərinin mədəni mənzərəsi (2007); Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi (2019) daxil edilmişdir. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində işlər davam etdirilir. Azərbaycan Respublikası 1992-ci ildə YUNESCO-ya üzv qəbul edilmiş, 1996-cı ildə isə UNESCO və Azərbaycan arasında əməkdaşlıq haqqında memorandum imzalanmışdır.

Artıq beş ildir ki, dövlət başçısının müvafiq Fərmanı ilə mədəni irsimizin qorunması, inkişafı və təbliğinə bilavasitə cavabdeh olan dövlət qurumu - Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti yaradılıb. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti mədəni irsin qorunması, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-

Etnoqrafiya qoruqlarının əraziləri istisna olmaqla, dövlət mühafizəsində olan daşınmaz tarix və mədəniyyət abidələrinin istifadəsi, bərpası, rekonstruksiyası, konservasiyası və yenidən qurulması sahəsində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Ötən müddət ərzində Dövlət Xidməti ölkəmizdə bir sıra tarixi abidələrin bərpa və konservasiyasını həyata keçirib, hazırda bu istiqamətdə görülən işlər davam etdirilir.

Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Regional idarələrini yaratmaqda əsas məqsəd - abidələrin mühafizəsinin həyata keçirilməsini asanlaşdırmaqdır. Belə ki, bu gün ölkəmizin bütün regionlarını əhatə edən 6000-ə yaxın Dövlət Qeydiyyatında olan mədəni irs abidələrini qorunması, istifadə və idarə edilməsi, həmçinin onlara nəzarət edilməsinin Bakıdan – Mərkəzi ofisdən həyata keçirilməsi mümkünsüzdür [7].

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən mədəni irsin qorunması işinin kompleks şəklində təşkil edilməsi məqsədilə abidələrin pasportlaşdırılması və mühafizə zonalarının müəyyənləşdirilməsi işləri 2021-ci ildə də davam etdirilib. İl ərzində 110 tarix və mədəniyyət abidəsinin pasportu hazırlanıb, 72 abidənin isə mühafizə zonası ilə bağlı sənədləri başa çatdırılıb. Daha 155 abidənin 2022-ci il ərzində hazırlanması və daha 108 abidə ilə bağlı mühafizə zonasına dair layihənin hazırlanması nəzərdə tutulur. Hazırda abidələr tarixilik və önəmlilik dərəcəsinə görə bərpa siyahısına salınır [18].

Görülən vacib işlərdən biri də daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası və qorunması ilə bağlıdır. Şabran rayonunda yerləşən dünya əhəmiyyətli “Çıraqqala” abidəsində bərpa-konservasiya işləri yekunlaşmaq üzrədir. V-VI əsrlərə aid “Çıraqqala” mərkəzi qala da daxil olmaqla 17 bürcdən ibarət düzbucaqlı formaya malikdir. Ötən müddət ərzində Azərbaycan Respublikası Prezidentinin imzaladığı Sərəncama əsasən bərpa-konservasiya işlərinə start verilib və bərpa üzrə zəruri tədbirlər görülüb. Dəniz səviyyəsindən 1234 metr hündürlükdə yerləşən bu abidənin bərpası həm daxili, həm də xarici ziyarətçilər üçün böyük maraq kəsb edəcəkdir.

Ölkəmizin zəngin mədəni irsinin təbliği, milli memarlıq və bərpaçılıq sənətinin təşviqi, tarix və mədəniyyət abidələrinin qorunması sahəsində

fəaliyyətin dəstəklənməsi və stimullaşdırılması məqsədilə 2013-cü ildən etibarən Mədəniyyət Nazirliyi tərəfindən "Milli irs mükafatı" təsis edilib. Bu mükafat, mədəni irsimizin təbliği, milli memarlıq və bərpaçılıq sənətinin təşviqi, tarix və mədəniyyət abidələrinin qorunması sahəsində fərqlənmiş şəxslərə və təşkilatlara təqdim olunur.

Bəzi abidələrin ətrafında sel sularından mühafizə üçün drenaj sistemi qurulmuş, ərazisi işıqlandırılmış, qoruqlara gedən magistral yollarda informasiya lövhələri və yol nişanları quraşdırılmışdır. Qoruqların bir qisminin maliyyələşdirilməsi dövlət büdcəsinin yerli xərclərindən mərkəzləşdirilmiş xərclərinə keçirilmişdir. Daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və mühafizə zonalarının müəyyən edilməsi istiqamətində işlər davam etdirilir.

Müasir sosial-iqtisadi münasibətlərdə mədəni irs obyektlərindən istifadə problemi təkcə Azərbaycanda deyil, malik olduğu mədəni irsi qoruyub saxlamağa çalışan bütün ölkələrdə də mövcuddur. MİO-ların xüsusi mülkiyyətçiyə aid olduğu dövlətlərdə həmin obyektdən istifadə dövlətin və cəmiyyətin ciddi nəzarəti altında həyata keçirilir. Bir qayda olaraq, qanunla tarixi-mədəni dəyərə malik olan obyektlərdən istifadə qaydası və üsulu ilə bağlı bir sıra məhdudiyyətlər qoyulur. ABŞ, Almaniya, Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya və s. belə ölkələrdəndir. Azərbaycandanda bu mexanizmlər yenicə formalaşmağa başlayıb.

Mədəni irs abidələrin saxlanılması və istifadəsi təcrübəsi demək olar ki, həmişə bir sıra həll edilməmiş məsələlərlə üzləşir. Bu gün həm də memarlıq irsindən istifadə, onun saxlanılmasının ən yaxşı üsullarından biridir. Mədəni irsin qorunub saxlanması sahəsində Azərbaycan təcrübəsi də son zamanlar bir qədər intensivləşməyə məruz qalıb, lakin bir sıra məhdudiyyətlər qalmaqdadır:

- səthi institusionallaşma, dövlətin həddən artıq məsuliyyəti, funksiya və səlahiyyətlərin kifayət qədər aydın şəkildə bölüşdürülməməsi;
- ictimai təşkilatlar mədəni-tarixi irsin qorunub saxlanması üçün fəal işləməklə bir çox işlər görsələr də, çox vaxt onların təşkilati potensialı zəif olur və nəticədə, ancaq dar peşəkar xüsusiyyətlərə malikdirlər;

- bir sıra mədəni irs obyektləri dövlət orqanları ilə ictimai təşkilatlar arasında konstruktiv iş əlaqələrinin olmaması və həll edilməmiş münaqişələrlə xarakterizə olunur;
- mədəni irsin əhəmiyyətinin dərk edilməsinə yönəlmiş məqsədyönlü və sistemli təbliğat və izahat işinin kifayət qədər aparılmaması və onun qorunmasında bütün maraqlı tərəflərin əməkdaşlığının lazımi səviyyədə olmaması;
- peşəkar genişmiqyaslı tədbirin olmaması (Fransadakı Heritage Salonuna bənzəyən);
- daşınmaz irs anlayışı onun "insani ölçüsündən" - insanların həyat tarixi, adət-ənənələri, yerli icma ilə əlaqələri və s. ayrılır. Müvafiq olaraq, çox vaxt işin yalnız maddi tərəfinə diqqət yetirilir;
- fərdi sahibkarlarla maarifləndirmə işinə və onların tarixi obyektlərin uyğunlaşdırılması üçün mümkün istifadə və texnologiyaları ilə tanışlığına ehtiyac var.

Azərbaycanın bir çox kiçik şəhərlərində və kənd yerlərində nadir mədəni və təbiət irsi abidələri olsa da, məskunlaşma sistemindəki dəyişikliklər və mənfi demoqrafik meyillər səbəbindən, ərazinin mədəni inkişaf səviyyəsi kəskin şəkildə aşağı düşür. İqtisadi fəal əhalinin təkcə kənd yerlərindən deyil, həm də kiçik şəhərlərdən intensiv köçməsi baş verir, nəticədə, mədəni landşaftın davamlılığı pozulur, nəinki nadir tarix və mədəniyyət abidələrinin mövcudluğu, həm də bütün kənd yerlərinin sosial-iqtisadi inkişafının perspektivləri itirilir. Təcrid olunmuş və ucqar ərazilərə çevrilən kiçik və xırda kəndlərin sayı artır, iri şəhərlərlə kənd yerləri arasında "sivilizasiya" mədəni fərqlər daha da güclənir. Belə bir şəraitdə, mədəni irs Azərbaycanın bir çox əraziləri üçün dirçəliş və yeni sosial-iqtisadi şəraitə uyğunlaşma üçün əsas mənbəyə çevrilə bilər. Bunun üçün mədəni irsin kapitallaşdırılması və onun obyektlərindən istifadənin səmərəliliyi artırılmalıdır.

## 4. Regionların mədəni irs obyektlərinin qorunması və bərpasının təşkilati-iqtisadi mexanizmləri

Regionların mədəni irs obyektlərinin əhəmiyyətli dərəcədə itirilməsi onu göstərir ki, hazırda mövcud olan daşınmaz abidələrin dövlət mühafizəsi

tədbirləri mədəni irs obyektlərinin təhlükəsizliyini tam təmin etmir. Bu gün, öncül dünya ölkələrinin əksəriyyətində bölgələrin mədəni irs obyektlərinin qorunması və istifadəsi sahəsində sosial-iqtisadi münasibətlərin tənzimlənməsi ilə bağlı səlahiyyətlərin əksəriyyətinin mərkəzi səviyyədən regional səviyyəyə ötürülməsi təcrübəsi geniş yayılmışdır. Bununla əlaqədar, mərkəzi və regional səviyyələrdə dövlət orqanları regionların daşınmaz mədəni irs fondları və onları təşkil edən bina və tikililərin qorunması və istifadəsi ilə bağlı sosial-iqtisadi münasibətlərdə *ictimai qəyyumluq (meritor)* funksiyasını həyata keçirməlidir. Daşınmaz mədəni irsin regional fondlarının qorunması və istifadəsi proseslərinin tənzimləyici, informasiya, təşkilati və iqtisadi təminatı formaları, üsulları və təsir vasitələri vahid təşkilati-iqtisadi mexanizmə inteqrasiyası əsasında təkmilləşdirilməlidir.

Təşkilati-iqtisadi mexanizm altında - daşınmaz mədəni irsin regional fondlarının qorunmasını təmin edən və onlardan istifadənin səmərəliliyinin artırılmasına töhfə verən təşkilati strukturların, normativ-hüquqi bazanın, formaların, metodların, dövlət təsirinin təşkilati və iqtisadi vasitələrinin məcmusu başa düşülür.

Regionların daşınmaz mədəni irsinin qorunmasının təşkilati-iqtisadi mexanizminin ən mühüm aləti - daşınmaz abidələrin bərpası üzrə məqsədyönlü proqramlardır. Lakin dövlət-özəl tərəfdaşlıq prinsipi həyata keçirilsə belə, bu cür proqramların resursları adətən cüzi olur ki, bu da daşınmaz abidələrin məhdud sayda təmir layihələrini maliyyələşdirməyə imkan verir. Bu baxımdan, regional məqsədli proqramlarda iştirak etməkdə obyektlərin və ya layihələrin seçilməsi üçün onların investisiya prioritetlərinin müəyyən edilməsi problemi yaranır.

Bir qayda olaraq, yerli hakimiyyət orqanları mədəni irs obyektlərinin səriştəli bərpasını və ya istismarını məsələn, mədəni turizmi kapitallaşdırmağa və ya onlardan istirahət və sosial proqramları genişləndirməyə istifadə etməklə, görüləcək işləri zəif və yarımçıq həyata keçirirlər. Bu mənada, Şekspirin doğulduğu Stratford-Avon şəhərinin nümunəsini örnək kimi göstərmək olar. Cəmi 30 minə yaxın əhalisi olan bu kiçik şəhəri, məhz yerli hakimiyyət orqanlarının və qeyri-dövlət qurumlarının səriştəli, lakin eyni zamanda diqqətli siyasəti sayəsində, hər il təxminən 5-6 milyon turist ziyarət edir. Məsələn,

Birmingem Universitetinin şəhərdəki filialı Şekspir istedadının pərəstişkarları və görkəmli alimlər üçün əlliyə yaxın festivaldan, teatr tamaşalarından, böyük elmi konfranslardan, sərgilərdən və s. ibarət maarifləndirici proqramlar təşkil edir. Təxminən eyni şeyi - Motsartın irsini uzun illərdir özündə yaşadan Salzburqa da etmək olar.

Hazırda hətta cüzi regional proqramlara və bəzən keyfiyyətsiz bərpa işlərinə baxmayaraq, Azərbaycana səyahətin cəlbediciliyi artmaqdadır. Son illərdə ölkəmizə turist, qonaq kimi gələnlər və hər hansı mədəni tədbirə qatılan çox sayda insanlar, hətta paytaxtda yerləşən beynəlxalq təşkilatların missiyaları və diplomatik nümayəndələr, ucqar şəhərlərə və məkanlara da getməyə can atırlar, getdikcə ölkəmizə daha çox orijinal formada baxmağa səy göstərirlər.

Azərbaycanda unitar dövlət, mərkəzləşdirilmiş idarəetmə naminə naminə qurban verilən yerli özünüidarəetmə ənənəsinin praktiki olaraq olmamasına baxmayaraq, yerli əhalinin öz bölgəsinin tarixinə, mədəniyyətinə və ənənələrinə sadiqliyi qalmaqdadır. Gözümüzün qabağında öz doğma yerinin, şəhərinin, kəndinin, hətta ayrı-ayrı soyların tarixini öyrənən həvəskar tədqiqatçıların bütöv bir nəsli yetişir.

Dövlətin köklü, yerli tələbatı vaxtında tutmalı və mədəni irsin insanların gündəlik, rutin həyatına qaytarılmasına artan ictimai tələbatı bacarıqla təşkil etməsi vacibdir. İndi mədəni irs sahəsində siyasəti yenidən qurmaq, ən azı, bürokratik nəzarət və əngəllər olmadan daha yaxşı və çevik ediləcək işləri aşağı səviyyələrə, ilk növbədə yerli özünüidarəetmə strukturlarına həvalə etmək lazımdır. Mədəni turizmin dəstəklənməsi üçün təsirli tədbir kimi qanunvericiliyin məntiqini düzəltməyə başlamalıyıq: mədəni irs sahəsində qanunvericiliyimiz hələlik daha çox qadağanedicidir, halbuki, o, stimullaşdırıcı olmalıdır. Məsələn, könüllülük fəaliyyəti hər cür təşviq edilməli, kiçik və yerli yaradıcı sənayelər dəstəklənməli və onların istehlakçılarına fayda verməlidir.

Bundan başqa, əlverişsiz sanitar-epidemioloji vəziyyətdə xidmətlərin göstərilməsi qaydalarının yumşaldılması da zəruridir, belə ki, yüksək tələbin qoyulması yalnız daxili turizmin artması fonunda böyüyən regional kiçik biznesə xələl gətirir. Bundan əlavə, mümkün olduğu yerlərdə kiçik şəhərlərə

həyat və abadlığı qaytarmaq vacibdir. Burada söhbət, yeni müəssisələrin yaradılmasından, yerli abidələrin və ya təbiətin kapitallaşdırılmasından gedir.

Yəqin ki, gələcəkdə ekoloji cəhətdən təmiz həyat tərzi dəbinə uyğun kəndin sakitliyinə doğru çəkilmək meylləri daha da artacaqdır. Bu da kiçik şəhərlər üçün yeni perspektivlər yarada bilər. Sadəcə olaraq, yol infrastrukturunu təkmilləşdirmək, mümkün olan regionlara və məkanlara dəmir yolu xətləri çəkmək və ya belə bir səfərin vaxtını və xərclərini əhəmiyyətli dərəcədə azaltmaq, eləcə də ətraf mühitin cəlbediciliyinə, onun rahatlığına sərmayə qoymaq və onları abadlaşdırmaq lazımdır.

Nəhayət, yerli ziyalıları dəstəkləməyi öyrənmək lazımdır. Belə ki, xalqın mədəni irsin qorunub saxlanmasına münasibəti, bilavasitə həmişə milli şüurun sözçüsü və dirijoru olmuş ziyalı təbəqə ilə bağlıdır. Bu günə mövcud olan regional inkişafla bağlı siyasət sənədlərində mədəniyyətin mümkün faydaları və onun gətirə biləcəyi spesifik effektlər ifadə olunmayıb. İqtisadiyyat və mədəniyyət müxtəlif sahələrə aid olsalar da, bu elə bir reallıqdır ki, mədəniyyətin tətbiqi effekti tamamilə hamı üçün, o cümlədən, mədəniyyətlə təkcə tamaşaçı kimi deyil, həm də iqtisadi fəaliyyətin tamhüquqlu subyekti kimi maraqlı ola bilməlidirlər.

Azərbaycanda mədəni irsin daşınmaz əmlak obyektlərinin mühafizəsi sahəsində mövcud vəziyyət, bir tərəfdən, dövlət tənzimlənməsinin yüksək payı, digər tərəfdən isə irs obyektlərinin mühafizəsi üçün büdcədən maliyyələşmənin kifayət qədər olmaması ilə xarakterizə olunur. Vəziyyət abidə binalarının konservasiyası sahəsində əlverişli investisiya mühitinin olmaması ilə daha da ağırlaşır ki, bu da təkcə, tarixi binaların inkişafı üçün qanunvericilik bazasının mükəmməl olmaması ilə deyil, mədəni irs obyektlərinin transformasiyası üçün səmərəli iqtisadi mexanizmlərin olmaması ilə bağlıdır. Bu səbəbdən, qarşıdakı illərdə tarix və mədəniyyət abidələrinin yenidən qurulmasına nəinki əhəmiyyətli investisiyaların yönəldilməsi, həm də milli səviyyədə mədəni irs obyektlərinin inkişafı strategiyasına köklü şəkildə yenidən baxılması zəruridir.

Mədəni irs obyektlərinin qorunması və inkişafı layihələrinin sosial-iqtisadi səmərəliliyi yaxınlıqda yerləşən digər obyektlərin bazar dəyərinin və gəlirliliyinin artması; dövlət büdcəsinə vergi və digər daxilolmaların artması,

tarixi abidələrin saxlanması üçün dövlət xərclərinin azalması, şəhər mühitinin keyfiyyətinin yaxşılaşdırılması və s. ilə müəyyən edilir. Ancaq bu nəticələrə əlavə olaraq, daşınmaz mədəni irs əmlakının qorunması və inkişafının idarə edilməsi daşınmaz mədəni irs əmlakının funksional istifadəsini canlandırmaq və tarixi obyektdən ən səmərəli istifadəni tapmaq və onu regionun yeni iqtisadiyyatının bazar mühitinə uyğunlaşdırmaq məqsədi daşıyır.

Mədəni irs obyektləri müasir şəraitdə ənənəvi mədəni-tarixi təyinatla yanaşı dövlət mədəniyyət siyasətinin elementlərindən biri olmaqla, regional sosial-iqtisadi inkişafın mühüm amilinə çevrilir. Mədəni irs obyektlərinin qorunması və təbliği məsələlərinə hökumətin müxtəlif səviyyələrində diqqət artırılsa da, bütövlükdə ölkə üzrə mühüm problemlər sırasında – obyektlərin əhəmiyyətli hissəsinin qeyri-qənaətbəxş fiziki vəziyyəti, maliyyə çatışmazlığı, onların təhlükəsizliyini təmin etmək üçün obyektin tərkibinin saxlanmasına əsasların olmaması, hüquqi mexanizmlərin təkmil olmaması, obyektlərin qeyri-qənaətbəxş şəraiti, maliyyə vəsaitinin çatışmazlığı, bu sahədə dövlət, o cümlədən regional nəzarətin zəif olması və s. qeyd etmək olar. Bununla yanaşı, mövcud problemlərə baxmayaraq, abidələrin bəziləri hələ də öz iqtisadi dəyərini itirməyib və təsərrüfat fəaliyyətində istifadə oluna bilər.

## Ədəbiyyat siyahısı

1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası //https://president.az/az/articles/view/7022
2. “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı”// https://president.az/az/articles/view/10705
3. Arts and Economic Prosperity III. The economic impact of nonprofit arts and culture organizations and Economic Prosperity. National report. 2007. P. 15–16. URL: http://www.AmericansForTheArts.org
4. Cultural Heritage Counts for Europe Report. Krakow, 2015. P. 21, 161.

5. Economics and Heritage Conservation. Los Angeles: The Getty Conservation Institute, 1998. P. 33.

6. Frey B.S. (2000). Arts & economics. Analysis & cultural policy. 2nd ed. Berlin, Heidelberg, New York: Springer.

7. Grinberg R., Rubinstein A. Economic Sociodynamics. Berlin; New York: Springer, 2005.

8. Klamer A., Mignosa A., L.Petrova. Cultural heritage policies: a comparative perspective // Handbook on the Economics of Cultural Heritage. Ed. by I. Rizzo and A. Mignosa. Cheltenham, UK; Northampton, MA, USA: Edward Elgar. 2013. P. 38.

9. Tailor R. House of Lords Library notes LLN-2015–0049 //National Lottery Contribution to Sport, Culture, Charities and National Heritage.

10. UNESCO/UNDP (2013). Creative economy report 2013. Special edition: Widening local development pathways. New York: United Nations Development Programme

11. Алгафри М.А. Культурное наследие и туризм в Сирии как направления регионального экономического развити //Московский экономическийжурнал. – 2018. – № 4. – с. 553- 546.; 62. Ассоциация сберегательных касс Италии (ACRI) //URL: http://www.acri.it/ Article/PublicArticle/387/3012/operating-and-financial-data.

12. Ивашиненко Н. Н., Стрелков Д.Г. Историко-культурное наследие городов как фактор активизации гражданского самосознания //Вестник Нижегородского института управления. 2013. № 3. URL: http://niu.ranepa.ru/ nauka/?page_id=3941

13. Росси Ф. Сознание народа сильнее законов о наследии //Хранители наследия. URL: http://hraniteli-nasledia.com/articles/person/federika-rossi/federika-rossi- soznanie-naroda-silnee-zakonov-o-nasledii/

14. Флорида Р. (2005). Креативный класс: люди, которые меняют будущее. М.: Классика-XXI. Florida R. (2005). The rise of the creative class:

And how it's transforming work, leisure, community and everyday life. Moscow: Klassika-XXI. (In Russian).

15. Чирвинская Е.Д. Франция: государство и культурное наследие //Культура: управление, экономика, право. 2010. № 4.

16. Яценко Е.П. Проблемы сохранения культурного достояния Италии // Культура в современном мире. 2013. № 4. URL: http://infoculture.rsl.ru/NIKLib/althome/news/KVM_archive/articles/2013/04/_kvm-s13.pdf

17. Актуальные проблемы культурного наследия. Москва: 2016. URL: https://hraniteli-nasledia.com/dose/biblioteka/

18. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti mətbuat konfransı keçirib. URL: https://news.milli.az/culture/1009937.html

**Танрыверди Паша**

## Оценка экономического воздействия защиты и реставрации культурного наследия

### Резюме

В статье излагается теоретические исследования о значении сохранения и реставрации культурного наследия в социально-экономическом развитии общества, обосновывается роль культурного наследия как ключевого фактора и будущего приоритета устойчивого развития, раскрываются сферы потенциального воздействия на социально-экономическое развитие страны, обосновывается необходимость государственной поддержки и вмешательства в сохранение, реставрацию и использование культурного наследия. Также даны методические пояснения по оценке экономических составляющих культурного наследия в современных условиях, раскрыты проблемы сохранения, реставрации и использования объектов культурного наследия, а также разъяснены преимущества и вклад, которые может внести культурное наследие в формирование креативной экономики в Азербайджанской Республике с учетом мирового опыта.

**Ключевые слова:** культурное наследие, сохранение и реставрация культурного наследия, культура, памятники истории и культуры, экономическая оценка, прямое и косвенное воздействие, креатив.

**Tanriverdi Pasha**

## Assessment of the Economic Impact of Protection and Restoration of Cultural Heritage

### Summary

The article presents theoretical research on the importance of preserving and restoring cultural heritage in the socio-economic development of society, substantiates the role of cultural heritage as a key factor and future priority for sustainable development, reveals areas of potential impact on the socio-economic development of the country, substantiates the need for state support and intervention in the preservation, restoration and use of cultural heritage. It also provides methodological explanations for assessing the economic components of cultural heritage in modern conditions, reveals the problems of preserving, restoring and using cultural heritage sites, and explains the benefits and contribution that cultural heritage can make to the formation of a creative economy in the Republic of Azerbaijan, taking into account world experience.

**Key words:** cultural heritage, preservation and restoration of cultural heritage, culture, historical and cultural monuments, economic assessment, direct and indirect impact, creativity.

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 15.04.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 15.05.2025***